# Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN FM Radio və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə ailə, qadın və uşaq məsələləri mövzusunda sosial çarxların çəkilməsi ilə bağlı Müsabiqənin

# Əsasnaməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN FM Radio və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə ailə, qadın və uşaq məsələləri mövzusunda sosial çarx müsabiqəsi elan edir. Müsabiqənin keçirilməsində məqsəd müvafiq sahədə problemlərin həlli istiqamətində maarifləndirmə işinin aparılmasına dəstək olmaqdır.

**Müsabiqənin şərtləri:**

Sosial çarxın xronometrajı maksimum 1 dəqiqə olacağından ssenari ona uyğun olmalıdır. Müsabiqədə hər kəs iştirak edə bilər. Müsabiqəyə aşağıdakı mövzularda ssenarilər təqdim edilə bilər:

- uşaq baxımsızlığı;
- ailədaxili və məişət zorakılığının ailənin psixoloji vəziyyətinə təsiri;
- insan alveri hallarının yaratdığı fəsadlar;
- sağlam həyat tərzi, ziyanlı vərdişlərin yaratdığı fəsadlar;
- qan qohumluğunun, erkən nikahın yaratdığı fəsadlar;
- Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası;
- Ailədaxili münasibətlərin uşaqların təhsilinə, davranışına, psixoloji durumuna təsiri;
- Valideyn-məktəb-şagird münasibətlərinin qarşılıqlı əlaqəsi.

Müsabiqə şərtlərinə uyğun olmayan ssenarilər qəbul olunmayacaqdır.

Festivalda iştirak etmək istəyənlər sentyabrın 26-dan oktyabrın 30-dək sənədləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə (Bakı şəhəri, Ü. Hacıbəyli 80 küç. Hökümət evi, IV qapı, tel: (+99412)498-94-02) və ya regionmerkez@gmail.com ünvanına göndərə bilər.